Allah-Təala əvvəlinci ayədə hamiləlik dövründə və iki il ərzində körpənin ana südü ilə qidalanması zamanı ananın fədakarlığını bəndəsinə xatırladır və ondan şükr etməyi tələb edir. Tanrının əzəmət və mərhəməti, valideynin zəhməti qarşısında şükr etmək sadəcə minnətdarlıq misalındadır.

Sonrakı ayədə isə ulu Tanrı kafir valideyn barədə nəsihət edib buyurur ki, onlar səni Allah yolundan döndərmək istəsələr, Mənə şərik qoşmağa vadar etsələr, bu işdə onlara tabe olma. Ancaq bu halda da valideynin haqqını gözlə, onlarla yaxşı davran. Axır dönüş Mənə tərəfdir. Qiyamət günü hər kəs dünyadakı əməli müqabilində mükafatını və ya cəzasını alacaq.

Ana haqqının böyüklüyü, müqəddəsliyi «Əhqaf» surəsinin 15-ci ayəsində də öz əksini tapmışdır. Ayədə oxuyuruq: «Biz insana ata-anasına yaxşılıq etməyi (valideynləri ilə gözəl davranmağı, onlara yaxşı baxmağı) tövsiyə etdik. Çünki anası onu (doqquz ay bətnində) zəhmətlə gəzdirmiş, əziyyətlə doğmuşdur. Onun (ana bətnində) daşınma və (süddən) kəsilmə müddəti otuz aydır. Nəhayət, (insan) kamillik həddinə yetişib qırx yaşa çatdıqda belə deyər: Ey Rəbbim! Mənə həm mənim özümə, həm də ata-anama əta etdiyin nemətə şükr etmək üçün ilham ver, nəslimi əməlisaleh et. Mən (günahlardan) Sənə tövbə etdim və şübhəsiz ki, mən müsəlmanlardanam (özümü canı-dildən Allaha təslim edənlərdənəm)» (səh.625).

Valideynə yaxşılıq etmək, onlara qayğı göstərmək İlahi tövsiyədir. Çünki ata-ananın övlad yolunda çəkdiyi zəhmətin, əziyyətin haqqını şübhəsiz ki, heç bir kəs tam qaytara bilmir və əslində bu mümkün də deyil. Ancaq insan valideyninə həmişə ehtiramla yanaşmağa çalışmalıdır. Ayədə insanın kamillik həddi - qırx yaşı xüsusi qeyd olunur. İnsan gənclik çağlarında səhv edə bilər. Kamillik yaşına çatdıqda həyatı daha dərindən dərk edir, özü də valideyn olur, bir zamanlar ata-anasının çəkdiyi əziyyətləri hərtərəfli anlamağa başlayır.

Allah-Təala istəyir ki, kamillik dövründə bəndə Onun özünə və ata-anasına verilən nemətə görə Rəbbindən şükrünün artırılması üçün ilham, nəslinin əməlisaleh olması üçün dua diləsin, etdiyi günahlarına görə tövbə eləsin.

Müqəddəs kitabın «Nəml» surəsinin 19-cu ayəsində İlahi vəhyi belə açıqlanır: (Süleyman qarışqanın) bu sözündən gülümsəyib dedi: «Ey Rəbbim! Mənə mənim özümə və ata-anama ehsan buyurduğun nemətə şükr etmək, Sənin razı qalacağın yaxşı iş görmək üçün ilham (qüvvət) ver! Və məni Öz mərhəmətinlə saleh bəndələrin zümrəsinə daxil et!» (səh. 453). Ayədən görünür ki, Allah-Təalanın ümməti haqq yoluna dəvət etmək üçün seçdiyi peyğəmbərlər də saleh bəndələr sırasına daxil olmaqdan ötrü dua edirlər. Həzrət Süleyman (ə) peyğəmbər onun özünə və ata-anasına ehsan edilən nemətə şükr etmək üçün Tanrıdan ilham (qüvvət) diləyir. İlahi razılığını qazanmaq zəmanəsinin şahı və peyğəmbəri Süleyman(ə)ın da ən böyük arzusudur.

«Qurani-Kərim»in «Nuh» surəsinin 28-ci ayəsində Həzrət Nuh (ə) peyğəmbərin dilindən deyilir: «Ey Rəbbim! Məni, ata-anamı, mənim evimə (yaxud məscidinə) mömin kimi daxil olan kimsəni və (Qiyamət gününə qədər olacaq) bütün mömin kişiləri və qadınları bağışla. Zalimlərin isə ancaq və ancaq həlakını artır» (səh. 726). Peyğəmbərlər bəşəriyyət üçün rəhbər, müəllim, tərbiyəçi olmuşlar. Həzrət Nuh (ə) peyğəmbərin də özünə, ata-anasına və bütün möminlərə dua eləməsi və məğşirət (bağışlanma) diləməsi ibrətamizdir. Ayədə diqqəti çəkən ən ümdə cəhət odur ki, Allahın peyğəmbəri iman gətirənlərə yox, bütün möminlərə dua edir, ata-anasını da onların cərgəsində görür. Möminlər isə o şəxslərdir ki, İlahi əmrlərini canla-başla yerinə yetirir və Tanrı dərgahında möminlik mərtəbəsinə yüksəlirlər. Burada həm də valideyn haqqının ucalığı, yüksək dəyəri göz önünə gətirilir.

Yazıda İlahi dərgahında valideynin məqamı və ata-ananın hər bir insanın həyatının ilkin çağlarında çəkdikləri əməkləri barədə yığcam formada bəhs etməyə çalışdıq. Qarşıya qoyduğumuz əsas qayə bundan ibarətdir ki, hər bir şəxs sağlığında valideyninə Tanrının buyurduğu şəkildə xidmət etməyə səy göstərsin, dünyalarını dəyişəndən sonra isə yaxşı əməlləri ilə onların ruhunu sevindirsin. Bu bizim insanlıq və müsəlmanlıq borcumuzdur.

● **Hacı BAYRAM**